

**ARZU HACIYEVA,**
filologiya üzrə fəlsəfə doktoru

# Əgər Şaiq olmasaydı...

Abdulla Şaiqin bütün yaradıcılığı maraqlı və uğurlu sintezlər üzərində qurulmuşdur. Burada milliliklə bəşəriliyin, ənənə ilə müasirliyin, Şərqlə Qərb sivilizasiyasının, romantizmlə realizmin, şeirlə nəsrin 'mükəmməl sintezinin şahidi oluruq...



*Həpimiz bir yuva pərvərdəsiyiz,*
*Həpimiz bir günəşin zərrəsiyiz.*

**A.Şaiq**

*"Əgər Şaiq olmasaydı, "Milli qiraət"imiz yox idi.*
*"Müntəxəbat" nəşr olunmamışdı.*
*"Ədəbiyyat dərsləri"ndən məhrum idik.*
*"Türk çələngi"ni görməmiş, "Türk ədəbiyyatı"nı eşitməmişdik. Əgər bu kitablar olmasaydı, məktəblərimiz yoxsul, müəllimlərimiz yalavac qalmışdı. Sözün qısası: onun varlığındakı əhəmiyyəti layiqiylə idrak edə bilmək üçün bircə dəqiqəlik yoxluğunu düşünməli!".*

Bu sözlər 1923-cü ildə Abdulla Şaiq yaradıcılığının 20 illiyi münasibətilə keçirilmiş tədbirdə Qafur Əfəndizadə Qantəmirin çıxışındandır. Əgər Şaiq olmasaydı... Həqiqətən də, əgər Şaiq olmasaydı, nail olduğumuz bir çox şeydən məhrum olardıq; bəlkə də gənc nəsil milli təfəkkürdən, öz mənşəyindən – türklüyündən uzaq düşərdi; Azərbaycan xalqı onun milli ruhda yetişdirdiyi ziyalı ordusundan məhrum olardı; "Şaiq adına Nümunə Məktəbi" fəaliyyət göstərməzdi; Azərbaycanda məktəb və maarif işi senzuranın pəncəsi altında əzilər və düzgün məcrasını tapmazdı; uşaq ədəbiyyatı onun qızıl fonduna daxil olan əsərlərindən məhrum olardı; milli ədəbiyyatımızı öz soy-kökünə – folkloruna bağlayanların, Avropa və Şərq klassik ədəbiyyatını Azərbaycan oxucusuna öz ana dilində çatdıranların sayı az olardı; ədəbiyyatımız incə ruhlu romantik Şaiq poeziyasından məhrum olardı; Vətənin, millətin taleyini öz şəxsi taleyindən qat-qat uca tutan təəssübkeş vətəndaşların sayı az olardı və nəhayət, əgər Şaiq olmasaydı, biz o nurlu simanı tanımaz, onun insanlığa örnək əməllərindən xəbərsiz olardıq!

Abdulla Şaiq XX əsrin əvvəllərində ədəbi prosesin mərkəzi simalarından biri idi. Onun fəaliyyəti çoxistiqamətlidir. Bugünkü elmi ictimaiyyət Azərbaycan ədəbiyyatı, ədəbiyyatşünaslığı, mədəniyyəti, təhsili sahələrində Şaiqin imzası ilə sıx-sıx qarşılaşır, onun bir əsr əvvəl deyilmiş, lakin hələ də öz elmi aktuallığını, təravətini itirməyən qiymətli fikirlərinə, köklü ənənələrinə ehtiyac duyur. Abdulla Şaiqin fəaliyyətini kəmiyyət və keyfiyyət baxımından həyat işi kimi qiymətləndirmək daha doğru olar.

Abdulla Şaiqin ədəbi-ictimai fəaliyyəti həm də ona görə qiymətlidir ki, onun cidd-cəhdlə, böyük zəhmətlər bahasına ərsəyə gətirdiyi bu işlər Azərbaycan xalqının taleyinin, müqəddəratının həll olunduğu dövrə təsadüf edir. Milli mənlik şüurunun yeni-yeni oyanmağa başladığı Azərbaycan xalqı bütün sahələrdə, o cümlədən elm və təhsildə də ciddi maneələrlə qarşılaşırdı. Çar hökuməti bütün vasitələrə əl ataraq xalqın milli özünüdərk prosesinə əngəl olmağa çalışırdı; məsələn, bu illərdə məktəblərdə ana dili dərsləri məcburi deyildi, başqa fənn müəllimlərindən fərqli olaraq ana dili müəllimi məvacibin beşdə birini alırdı. Hökumət bütün vasitələrlə ana dilini gözdən salmağa çalışırdı. Bu mühitdə gözünü açan, dünyagörüşü formalaşan azərbaycanlı balalarının öz dilinə, mədəniyyətinə münasibəti necə ola bilərdi?! Ən əsası, onu gələcəkdə nə gözləyirdi?!

Abdulla Şaiqi gecə-gündüz çalışmağa ruhlandıran, qələmi süngüyə çevirməyə vadar edən acı həqiqət bu idi! Azərbaycan xalqının milli özünüdərk prosesinin bu həlledici mərhələsində Abdulla Şaiqin tarixi yer və zaman etibarilə uğurlu olan fəaliyyəti danılmazdır. O, bir sıra

ziyalılarla yanaşı, bütün qüvvəsini və potensialını çarizmin yürütdüyü ruslaşdırma siyasətinin qarşısını almağa yönəltdi. Şagirdlərə çar hökumətinin iç üzünü açıb göstərməklə, bu barədə söhbətlər aparmaqla yanaşı, onlarda milli şüuru oyatmaq üçün məktəb daxilində və məktəbdənxaric mənzum və mənsur hekayələr, tamaşaya qoyulmaq üçün dramlar yazdı. Özünün "Xatirələrim" əsərində yazdığına görə, Şaiq ana dilini şagirdlərinə o qədər sevdirdi ki, realni məktəbdə işlədiyi 15 il müddətində zəif qiymət alan yalnız bir tələbə ərizə ilə müraciət edib ana dili dərsindən azad olmaq istəmiş, lakin sonradan üzr istəyərək yenidən dərsə davam etmişdi.

Abdulla Şaiqin ədəbi irsi mövzu və janr zənginliyi ilə yadda qalır. Şeir, hekayə, dram, povest, roman, oçerk, elmi-publisistik məqalə kimi müxtəlif ədəbi janrlarda əsərlər ərsəyə gətirən ədib ədəbiyyat tariximizdə nisbətən azişlənən memuar janrına da müraciət etmişdir. Qiymətli ədəbi-tarixi məxəz hesab edilən "Xatirələrim" əsəri ilə Şaiq öz həyat və fəaliyyətinə dair real tarixi faktları gələcək nəsillərə çatdırmaqla kifayətlənməmiş, həmçinin Azərbaycan mədəni-ictimai həyatının 70–80 illik bir dövrünə aydın bir işıq salmışdır.

## Şaiq və "üç Yusif"

Abdulla Şaiqin taleyində "Yusif" adının xüsusi anlamı vardır. Onun bir ziyalı kimi yetişməsində, dünyagörüşünün formalaşmasında "Yusif" adını daşıyan üç şəxsin böyük rolu olmuşdur. Onlardan biri Abdulla Şaiqin müəllimi olmuş Yusif Ziyadır. Xorasanda "Yusif Ziya" məktəbini təsis edən bu maarif xadimi Şaiqə elmin sirlərini öyrətmiş, Azərbaycan dili, Şərq xalqlarının dilləri, ədəbiyyatı və tarixi fənlərini tədris etmişdir. A.Şaiq şeirlərini Azərbaycan dilində yazmağa sövq edən şəxs də elə Yusif Ziyadır.

Ədəbi fəaliyyətə başladığı ilk illərdə Abdulla Şaiqi cəlb edən sahələrdən biri də şifahi xalq ədəbiyyatı olmuşdur. Həyat və fəaliyyətinin Bakı dövründən – 1900-cü ildən etibarən Abdulla Şaiq Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini toplamağa səy göstərmiş, bildiyi nağılları, tapmacaları, bayatıları, atalar sözlərini yazıya almışdır. O, müxtəlif bölgələrdən gəlmiş şagirdlərinin hər birinə yay tətili zamanı dəftər verər, onlara folklor nümunələrini toplamağı həvalə edərmiş. Hətta Cənubi Azərbaycan folklorunu toplamaq məqsədilə Abdulla Şaiq bir neçə hambal ilə tanış olur, onları evə dəvət edib söhbətlərini yazıya alır. Abdulla Şaiq milli folklor motivlərindən, süjet və obrazlarından sıx-sıx barınan yazıçı, şifahi xalq ədəbiyyatının tədqiq və təbliğinə həsr olunmuş ilk məqalələrdən birinin müəllifi, Azərbaycan şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatı arasında tarixi-məntiqi əlaqəni bərpa edən və qədim tarixə malik Azərbaycan ədəbiyyatının bütöv, tam mənzərəsini yaratmağa nail olan ədəbiyyatşünas alimdir.

Özünün dediyinə görə, Abdulla Şaiqə Azərbaycan folklorunu sevdirən şəxs "Yusif əmi" olmuşdur. Abdulla Şaiqin "Yusif əmi" deyə çağırdığı yoxsul və kimsəsiz qoca gündüzlər onların alış-veriş işlərini görər, gecələr isə uşaqlara nağıllar, tapmacalar söyləyərmiş.

Abdulla Şaiqin bir şəxsiyyət kimi yetişməsində xüsusi rolu olan üçüncü "Yusif" onun doğma qardaşı Yusif Ziya Talıbzadədir. XX əsrin əvvəllərində görkəmli türkçü, islamçı ideoloq, publisist, maarifçi, şair, dramaturq, hərbçi və siyasi xadim kimi tanınmış Yusif Ziya özünün turançılıq məfkurəsini kiçik qardaşı Abdulla Şaiqə də təlqin etmişdir. Damarlarında axan türk qanı və qardaşının milli-mənəvi irsi damla-damla Şaiqin əsərlərinə hopan turançılıq ideyalarına çevrilmişdir.

## Şaiq yaradıcılığının gizli tərəfi

Sovet imperiyasının süqutunun sonlarına doğru – 1990-cı illərdə ədəbiyyat üzərindən yasaq pərdəsi qaldırıldı. Onsuz da məlum olan, lakin üstüörtülü məqamlar aydınlığa qovuşdu.



İnsafsızcasına uydurulmuş "həqiqət"ləri təkzib etmək üçün fürsət yarandı. Bu zaman biz Abdulla Şaiq yaradıcılığının uzun illər məlum səbəblərdən gizli qalmış bir tərəfi ilə də tanış olduq; ədibin oğlu mərhum akademik Kamal Talıbzadənin səyləri nəticəsində Abdulla Şaiq irsinin mayasını təşkil edən əsərləri meydana çıxdı, Abdulla Şaiq yaradıcılığının müasirlərinə bəlli olan, lakin üzərindən səssizcə keçilən əsas xüsusiyyəti – türkçülüyü meydana çıxmağa zaman və şərait tapdı. Oxucu əsl Şaiqi tanıdı. Bu, canı, qanı, düşüncəsi, əsərləri ilə əsl azərbaycanlı olan Şaiqdir. Yeganə nicat yolunu türklərin dil, mədəniyyət, mənəviyyat baxımından birliyində görən Abdulla Şaiq 1918-ci ildə yaradıcılığının manifesti kimi səslənən bu sətirləri yazırdı:

*Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz.*
*Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz.*
*Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.*
*Başqasını istəməm də, ey türk, çabuk sən gəl, sən,*
*Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın nədən?*



Abdulla Şaiq və Hüseyn Cavid

Abdulla Şaiqin bütün yaradıcılığı maraqlı və uğurlu sintezlər üzərində qurulmuşdur. Burada milliliklə bəşəriliyin, ənənə ilə müasirliyin, Şərqlə Qərb sivilizasiyasının, romantizmlə realizmin, şeirlə nəsrin mükəmməl sintezinin şahidi oluruq. Abdulla Şaiq həm təpədən-dırnağa turançılıqdan yoğrulmuş bir Azərbaycan mütəfəkkiri, həm də qlobal, bəşəri ideyaların carçısıdır. O, milli-mənəvi dəyərlərin yorulmaz təbliğatçısı, həm də müasirliyin tərəfdarıdır. Şərqi mədəniyyətin beşiyi hesab edən Abdulla Şaiq Qərb sivilizasiyasının nailiyyətlərindən korkoranə deyil, məqsədyönlü, səmərəli istifadə etmişdir. Şaiq irsi romantik və realist yaradıcılıq metodları üzərində köklənmişdir. Burada romantizmlə realizm bəzən vəhdət şəklində, bəzən isə hər birinin nəzəri-estetik prinsiplərinə ciddi riayət olunmaqla təzahür edir. Bütün bu xüsusiyyətlərinə görə Abdulla Şaiq irsi hər dövrün oxucuları üçün maraqlı və aktualdır.

Filosof-alim Yaşar Qarayev bütün ömrünü xalqının, millətinin tərəqqisi yolunda damla-damla əridən Abdulla Şaiqin xidmətlərinə ən səmimi və ümumiləşdirilmiş qiyməti verir:

"Azərbaycanda aydınlara həsr olunan ziyalı gecələri çox olub. Lakin təkcə "Şaiq gecəsi" bir istilah kimi ədəbiyyat tarixinə düşüb... Çox aydınların adı ilə bağlı məktəblər olub, ancaq təkcə bir məktəb ("Üçüncü gimnaziya") milli pedaqoji fikir tarixinə öz banisinin adı ilə – "Şaiq məktəbi" kimi daxil olmuşdur. Ümumbəşəri vəhdət və bütövlük idealının bədii-fəlsəfi düsturu olan misra və beytlər çoxdur. Lakin məhz Şaiqin söylədiyi sözlər (Sent Ekzüperinin məşhur "Hamımız bir planetin sakinləriyik" kəlamından yarım əsr əvvəl!) bu gün bir ithaf kimi BMT-nin nəşr etdiyi dərginin üz qabığına yazılmışdır: "Həpimiz bir yuva pərvərdəsiyiz, həpimiz bir günəşin zərrəsiyiz" *(Y.Qarayev. "Min ilin sonu". Bakı – 2002, səh. 76).*